***Yazıçı-publisist Əli Rza Xələfli və "Kredo" qəzetinin gənc yazarı Ceyhun Zallının "Böyük portretin işığı" kitabı görkəmli naşir Şəddat Cəfərovun həyat və yaradıcılıq yolunun ən maraqlı məqamlarına işıq salır. Onu da oxucuların diqqətinə çatdırmaq yerinə düşər ki, "Böyük portretin işığı" kitabının birinci cildi 2020-ci ildə nəşr olunub. Eyni adla təqdim olunan kitab ikinci cilddir. Müəlliflər ədəbi obrazı həm özünün yaradıcılığı fonunda, həm də qaynar həyat hadisələrinin içərisində təqdim edirlər.***

***Əli Rza Xələfli və Ceyhun Zallının birgə əsəri kimi "Böyük portretin işığı" kitabının geniş oxucu əhatəsində maraq doğuracağına inanırıq.***



*Yadulla* Ağazadə
*filologiya elmləri doktoru, professor*

# SÖZÜN İŞIĞINDA YARANAN PORTRET

Yazıçı-publisist Əli Rza Xələfli və "Kredo"nun gənc yazarı Ceyhun Zallının "Böyük portretin işığı" kitabı ilk poliqrafçı alimimiz Şəddat Cəfərovun həyatı, fəaliyyəti, elmi və bədii yaradıcılığı haqqında publisistik qeydlərdən ibarətdir. Əslində müəlliflər görkəmli naşirin həyatını və çoxcəhətli fəaliyyətini uzun müddətdir ki, öyrənir və tədqiq edirlər. İşlərinin nəticəsi də göz qabağındadır. Onlar "Böyük portretin işığı" adı ilə ədəbi-publisist qeydlərinin birinci cildini 2020-ci ildə oxuculara təqdim ediblər. Kitab maraqla qarşılandığı üçün müəlliflər mövzunu işləməyi davam etdiriblər. Və böyük zəhmət hesabına əsərin ikinci cildini də yazıb bitiriblər.




"Böyük portretin işığı" kitabının ikinci cildi iki bölmədən ibarətdir. Birinci bölmə "Qəhrəmanların izi ilə" adlanır. Müəlliflər Ş.Cəfərovun İkinci Cahan savaşının qəhrəmanları haqqında yazdıqlarını ədəbi təhlilləri ilə diqqətə çəkirlər. Bu yazılardan öyrənirik ki, Şəddat Cəfərov İkinci Cahan savaşının qəhrəmanlarının taleyini yazan ən müqtəbir müəlliflərimizdəndir. Onun yazılarında azərbaycanlıların faşizmə qarşı mübarizəsi real müharibə epizodları ilə təqdim olunur. Əslində elə Əli Rza Xələfli və Ceyhun Zallı da Şəddat Cəfərovun bu xidmətini dəyərləndirməyə çalışırlar.

Kitabın ikinci hissəsi "İlkinliyin aynasında" adlanır. Bu bölmədə müəlliflər Şəddat Cəfərov haqqında yazılmış əsərləri əsas götürərək onun həyatının ilk çağlarını səmimi bir ruhda yazıya gətirirlər. Kitabda Ceyhun Zallının "Şəddat babaya bir məktub" adlı ayrıca bir yazısı var. Bu yazı göstərir ki, tarixi dəyərlərə, həyatını cəmiyyətə sərf edən insanlara necə yüksək sevgi bəsləyən yeni nəsil yetişir. Bu məni də xüsusilə sevindirir.

Poliqrafiyamızın tarixi mədəniyyət tariximizin tərkib hissəsidir. Ölkəmizdə çap işinin, kitab nəşrinin bütün parametrləri əslində Azərbaycan mədəniyyətinin istiqamətlərini şərtləndirən göstəricilərindəndir. Bu mənada mətbu çap fəaliyyəti, eləcə də, kitab nəşri ilə məşğul olan bütün müəssisələr, qurumlar mədəniyyətimizin inkişafına xidmət edir.

Azərbaycandan nəşriyyat işinin kifayət qədər tarixi var. Qəzet nəşri, kitab nəşri hələ XIX əsrin "Əkinçi" zamanından üzü bəri yol başlayıb. Və bu yolda irəliləyişlər, yeni texnologiyaların tətbiqi bizim ölkəmizdə də nəşriyyat işini dünyanın qabaqcıl nəşriyyat işlərinin səviyyəsinə qaldırıb. Şübhəsiz, Sovet dövrünün görkəmli mütəxəssislərinin fəaliyyətlərini də dana bilmərik. XX əsrin 60-70-ci illərindən üzü bəri Azərbaycanda çap texnologiyaları, nəşriyyat işi yeni inkişaf mərhələsinə daxil oldu. Şübhəsiz, bu da yeni təfəkkür tərzinə sahiblənmiş mütəxəssislərin yetişməsi, meydana çıxması ilə bağlı idi.

Mən yaxşı tanıdığım, Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərovun adını xarakterizə etdiyimiz sahənin ən görkəmli mütəxəssislərindən biri kimi çəkərdim.

Bu mənada Şəddat Cəfərov haqqında yazılmış hər bir kitab təqdir olunmalıdı. Çünki belə mütəxəssislərin həyatı, yaradıcılıq mühiti, ixtisas fəaliyyəti əslində bir məktəbdir. Biz bu məktəbi təkcə öyrənmək yox, həm də gələcək nəsillər üçün öyrətmək imkanı yaratmalıyıq.

Hər bir kitab həm ədəbi qəhrəmanı təqdim edir, onun kimliyini göstəricisi olur, həm də müəlliflərinin kimliyinə işıq salır. Bu kitabda Əli Rza Xələflinin və Ceyhun Zallının Şəddat Cəfərov obrazının timsalında insanlığa sevgilərini görmək, duymaq oxucu fərəhi doğurur.

***17.12.2021***